# ŞAİRİN YAŞI OLMUR

**Sabir Abdin. Təmiz prokuror şinelini və ulduzlarını qoruyub saxlayan hüquqşünas. Ən əsası isə şair. Özü də nəğməkar şair. Bu ad, bu imza necə illərdir qoşulub sözün karvan köçünə. Nəğmə-nəğmə dillərdə, bəstəkarların dodaqaltı zümzümələrində, gitaranın barmaq toxunan simlərində, əslində barmaqların uclarında belə kövrək-kövrək ağlayır Sabir Abdin şeirləri. Bu kövrəklik onun poeziyasının durna qatarından düşən, qəlbinin dərin qatlarından gələn, düşüncələrində yoğrulan bir fəryaddır. Mən Sabiri tanıyandan o, bu söz qatarı ilə mənzil-mənzil addımlamaqdadır.**

**Şair yazır:**

**Üzümə bağlıdır açıq qapılar,**
**Köhnə qapıların cəftəsi paslı.**
**Kim bilir bəlkə də itib açarı,**
**Qıfılı qapıda qalıb asılı.**

Doğrusu bu misralar elə bil mənim, sənin, onun, hamımızın üsyankar səsimizdir. Bu misraları oxuyanda bir anlıq düşünürsən, böyük Füzulinin Şəbi-Hicranı bir nalə olub qəlbimizi ağladır. Bu dörd misranın hər birində Sabir Abdin fəlsəfəsi, Sabir Abdinin iç dünyasının üsyankar səsi mərd, mübariz bir şairin söz harayı var. Bu misralar bugünümüzlə necə də səslənir. Üzümüzə bağlı olan açıq qapılar görən nə vaxta qədər bizləri, bizim övladlarımızı qəbul etməyəcək?

Mən bir qələm əhli olaraq Sabirin bu dörd misrasını poeziyamızın düşüncələr və hikmətlər silsiləsinə cəsarətlə, şərəflə daxil etməyə borcluyam. Üzümüzə bağlı bu açıq qapılar haram tikələr, mənim, sənin, hamımızın haqqıdır. Bunlar hərarətdən o qədər şişib ki, bir tikə çörək axtaran yetim uşaqları belə qapıdan qovurlar. Görən onlar axirəti düşünürlər mi?

Sabir Abdinin "Yağış pıçıltısıyam" şeirində çox mənalı, eyni zamanda düşündürücü fikirlər çoxluq təşkil edir. Oxuya-oxuya düşünürəm. Sabir şahmat oynayır. Ən qəribəsi də onun bu misraları iki xoşbəxt sevginin hardan və necə yaranması, sonda isə yaradan uca Allaha qovuşması çox ustalıqla qələmə alınmışdır.

Sabirin lirik şeirlərində sevgi duyğuları bir qəlbin bulaq zümzüməsi, yarpaq xışıltısı, əsən küləyin, çiçəklərin yanaqlarını sığallaması kimi lirik bir simfoniyanı xatırladır.

**Hər səhərə dil açan,**
**Hər axşama əl açan,**
**Hər gecəyə qol açan,**
**Bir sən idin, bir də mən.**

Biz hər birimiz deyirik: Bu Vətən mənim canımdır, qanımdır, anamdır. Bu Vətən üçün canımı verərəm, ölərəm. Sabir Abdin isə yazır.

**Mən də bir Vətənəm,**
**Qana qan demirəm, qanım durudur.**
**Tökülən qanları torpaq qurudur.**
**Ürəyim gözümün sevgi yurdudur.**

Çox qəribə, düşündürücü bir fikirdir. Ürəyim gözümün sevgi yurdudur bu sonuncu misranın altından xətt çəkib, onu ədəbiyyatımızın Qızıl fonduna daxil etmək hər bir qələm əhlinin borcudur. Sabirin şeirlərini oxuduqca fikirləşirəm. O heç bir vaxt zalım, haqsız prokuror ola bilməz, olmaq istəsə də şair qəlbi buna imkan verməz.

Sabir bir şair kimi Vətəni varlığı qədər sevən və Vətənləşən şairdir.

**Mən də bir vətənəm,**
**Şərbət əvəzinə zəhər içmişəm.**
**Sevinc əvəzinə qəhər içmişəm,**
**Bütövləşmiş Vətən yolu seçmişəm.**

Vətən yolunu seçən, haqqı sevən, haqqı qoruyan yalnız şair ola bilər. Sabir Abdinin "Adını sən seç" şeirlər kitabı onun dərin düşüncələrinin fəlsəfi mayasından yoğrulub. Kitabın 70-ci səhifəsində "Yağ ömrümə, yaz yağışı" bu qəribə misraya donub qaldım. Ən



çox sevdiyim yağışdır. O yağış ki, uca Yaradanın nurudur. Bu nurda dualar qəbul olunur.

**Pəncərəmin göz yaşısan,**
**Yağ ömrümə, di yağsana.**
**Bircə hovur məni ovut,**
**Qalıb əlac, ümid sənə.**

Şeiri oxuyanda bütün yorğunluğum bir anda yox oldu. Sabirin yağışında bir sevgi var. Sabir öz yağışında islana-islana necə-necə şeirlərinin toxumlarını göyərdib.

Sabir Abdinin şeirlərini oxuyanda ustadım mərhum xalq şairi Məmməd Arazın bu misrasını xatırladım.

Ölə-ölə yazmıram, Yaza-yaza ölürəm.

Məhz Sabir də şeir yalnız onu tapdığı anda yazır. Onun şeirləri Yardımlı bulaqlarının suyu kimi dupduru, gözseçməsidir.

Şair "Əlli yaşıma" şerində yazır:

**Yığıb gözlərinə buz bulaqları,**
**Dağlardan, daşlardan keçib gəlirsən**
**Qaralır ömrümün ağ vərəqləri,**
**Sən lap uzaqlardan köçüb gəlirsən.**

Əziz qələm dostum. Mən necə-necə illər belə ta tələbəlikdən üzü bu yana səni şair kimi tanımışam. "Əlli yaşıma" şerini oxuyanda bir anlıq düşündüm. Əslində şairin yaşı olmur. Onun şeirlərinin yaşı olur. Hər yazılan şeir oxucu ürəyinə hakim olduqca ünvan-ünvan, mənzil-mənzil, yaddaş-yaddaş yaşayır.

Beləliklə şair Sabir Abdinin də yaşı bilinmir.

Sənə böyük hörmətlə, daha böyük yaradıcılıq uğurları ilə qələm dostun:

**Dəyanət Səlimxanlı,**
**Şair, tədqiqatçı jurnalist,**
**"Məmməd Araz" və "Qızıl qələm" mükafatı laureatı**

ədalət.-2017.-18 fevral.-S.9.